**Salyanda fəaliyyət göstərən aptekdə keçirilmiş yoxlamaya dair məlumat**

**(4 aprel 2025)**

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları Salyan şəhəri, Y.Qasımov küçəsində fəaliyyət göstərən, “Zeytun Pharmaceuticals” MMC-yə məxsus “Salyan 20” aptekdə yoxlama keçirib.

Baxış zamanı aptekin anbar sahəsində sanitar-texniki və sanitar-gigiyenik vəziyyətin qənaətbəxş olmadığı, havalandırma sisteminin quraşdırılmadığı, temperaturun monitorinqi və qeydiyyatının aparılmadığı, zəruri təmizlik işlərinin görülmədiyi və digər nöqsanlar aşkarlanıb.

Faktla bağlı iaşə obyektinin rəhbəri Mehdiyev Mehdi Əsgər oğlu barəsində inzibati protokol tərtib olunub və anbar sahəsində işlərin görülməsi və xidmətlərin göstərilməsinə nöqsanlar aradan qaldırılanadək müvəqqəti məhdudiyyət tətbiq edilib.